# Peşə təhsilinə diqqət artırılır

Bu bir həqiqətdir ki, müvəffəqiyyətli inkişafın əsasında bilik dayanır və onun yaradıcısı, daşıyıcısı, tətbiq edəni insandır. Biliklərin əldə edilməsi, fəaliyyətdə tətbiqi üçün ən mühüm amil isə təhsildir. Bu baxımdan dünyanın ən inkişaf etmiş ölkələri öz təhsil sistemlərini mütəmadi olaraq yeniləşdirirlər. Azərbaycan təhsili də özünün tərəqqi dövrünü yaşayır. Çağdaş dövrdə təhsil sisteminin yeni, daha yüksək səviyyəyə qaldırılması, təhsilin keyfiyyətinin artırılması modernləşmə mərhələsinə qədəm qoymuş Azərbaycanın prioritet istiqamətlərindəndir. Sürətli tərəqqi yolunda olan respublikamızda təhsil sisteminin inkişafı, təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması qarşıda mühüm vəzifə olaraq durur. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkəmizin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində mühüm rol oynayır. Təhsilin inkişafı eyni zamanda ölkə əhalisinin rifahının yaxşılaşması, insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, sağlam həyat tərzi və ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Bu səbəbdən də gənc nəslə hərtərəfli bilik və bacarıqların verilməsi üçün təhsil sisteminin əsaslı şəkildə inkişaf etdirilməsi vacib məsələlərdən biridir.

Son illər ölkəmizdə dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sistemi modelinin qurulması istiqamətində mühüm addımlar atılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq edilməsi təhsil tariximizdə əhəmiyyətli hadisə kimi qəbul edilir. Strategiya təhsilin səviyyəsini müasir standartlara uyğunlaşdırmaq, ali və orta təhsil müəssisələrində tədrisin keyfiyyətini yaxşılaşdırmaq, pedaqoji kadrların işlə təmin edilməsi, kadr tələbatının ödənilməsi, pedaqoji profilli gənc mütəxəssislərin konkret iş yerlərinə göndərilməsi, ucqar kəndlərdə müəllim çatışmazlığı probleminin həlli üçün bütün zəruri tədbirlərin həyata keçirilməsi, o cümlədən, stimullaşdırıcı addımların atılması və s. bu kimi mühüm vəzifələrin həllini qarşıya qoyur. Eyni zamanda ölkəmizin təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edən səmərəli fəaliyyət sisteminin qurulması ilə əlaqədar bir sıra tədbirlərin görülməsi də nəzərdə tutulur.

Son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktik bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsil müəssisələrində akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların verilməsi də vacib sayılır.

İlk peşə ixtisas təhsili ümumi orta təhsil bazasında cəmiyyətin və əmək bazarının tələbatına uyğun olaraq müxtəlif sənət və kütləvi peşələr üzrə ixtisaslı işçi kadrlar hazırlığını təmin edir. 1990-cı ildən başlayaraq ölkəmizdə bu sahəyə diqqət xeyli artmış, onun dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, peşə təhsili müəssisələrinə, “peşə məktəbi” və ya “peşə liseyi” statusu verilmiş, təhsilin məzmunu yeniləşdirilmiş, tədris plan və proqramları təkmilləşdirilmişdir ki, bu da yüksək ixtisaslı kadrlar hazırlamaq imkanı yaratmışdır.

Ölkə iqtisadiyyatının dinamik inkişafı, regionların inkişafındakı müsbət dəyişikliklər də peşə yönümlü ixtisasların zəruriliyini bir daha təsdiqləyir. Bu səbəbdən də peşə təhsilini əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırmaq məqsədilə bu sahə üzrə yeni ixtisaslar açılmış, peşə təhsili üzrə yeni tədris proqramına uyğun dəyişikliklər, dərs vəsaitlərinin hazırlanması nəzərdə tutulmuşdur. Tədris prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının geniş istifadəsinə nail olunmuş, mütərəqqi təhsil sistemlərindən istifadə etməklə peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi, kənd təsərrüfatı, turizm, emal və xidmət sahələri üçün kadrların hazırlanması ön plana çəkilmişdir. Və eyni zamanda peşə təhsili müəssisələrinin bir-biri ilə təcrübə mübadiləsi və birbaşa əlaqəsi üçün müəyyən tədbirlər görülmüş, bir sıra ixtisaslar üzrə şagirdlərin iştirakı ilə olimpiadalar və müsabiqələr təşkil olunmuşdur. Bütün bunlar dövlətimizin ümumilikdə təhsil sisteminə göstərdiyi diqqət və qayğının təzahürüdür. Dövlət başçısının təhsillə bağlı imzaladığı sərəncamlar, proqramlar yalnız və yalnız gələcəyimiz olan gənclərin yüksək, beynəlxalq standartlara uyğun təhsil almalarına və təhsilli savadlı milli kadrların yetişməsinə xidmət edir.

30 ildən çox bir müddət ərzində rəhbərlik etdiyim 13 saylı Bakı Peşə Məktəbində



300-ə yaxın şagird 7 ixtisas üzrə təhsil alır. Kollektivimiz şagirdlərin hər birinin dövlətimiz, cəmiyyətimiz üçün sağlam, təcrübəli vətəndaş, mükəmməl bilikli peşə sahibi, sevib-seçdikləri sənətinin bilicisi olmaları üçün əzmlə çalışır. Pedaqoji kollektivin hər bir üzvü yaxşı başa düşür ki, sənət öyrətdiyimiz gənclərin ilk peşə - ixtisas təhsili illəri peşə təhsilinin, o cümlədən məktəbimizin tarixinin səhifələrinə yazılır. Onların uğurlu gələcəyi məktəbimizin peşə təhsilinin inkişafına verdiyi töhfədir. Bu gün məzunlarımızın xoş xəbərləri, müvəffəqiyyətləri kollektivimizin zəhmətinin nəticəsidir. Bundan sonrakı fəaliyyətimizdə də dövlətimizin təhsilimizə, sabahımıza göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirərək etimadı doğrultmağa çalışacağıq.

**Səidə SƏLİMZADƏ,**
**13 saylı Bakı Peşə Məktəbinin direktoru.**